# "Ümid" körpüsündən İğdır-Naxçıvan qaz kəmərinə...

**Martın 5-də açılışı olan İğdır-Naxçıvan qaz kəməri Azərbaycan və Türkiyə dostluğunun və qardaşlığının növbəti təntənəsinə çevrildi. Bu kəmərin istifadəyə verilməsi 35 ilə yaxındır ki, blokada vəziyyətində olan Naxçıvanın enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, Azərbaycanla Türkiyə arasındakı bağları daha da möhkəmləndirdi.**



Açılış mərasimində çıxış edən Azərbaycan və Türkiyə prezidentləri iki dövlət arasındakı münasibətlərlə bağlı bir çox məsələlərə toxundular, mühüm açıqlamalar verdilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu mərasim bir daha Azərbaycan-Türkiyə birliyini, dostluğunu və qardaşlığını göstərdi.

Azərbaycan və Türkiyə liderlərinin uzaqgörən siyasətinin nəticəsi kimi ərsəyə gələn İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. Azərbaycandan Türkiyəyə ötürülən təbii qaz bu kəmər vasitəsilə həm də Naxçıvana çatdırılacaq. Bununla da muxtar respublika həm də öz təbii qazımızla təmin olunacaq. Gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək.

Xatırladaq ki, İğdır-Naxçıvan qaz kəmərinin təməli 2023-cü il sentyabrın 25-də qoyulub. Cəmi il yarıma kəmərin inşasının başa çatdırılması və istifadəyə verilməsi həm də hər iki dövlətin prezidentinin qətiyyətli siyasi iradəsinin təcəssümüdür.

Prezident İlham Əliyevin toxunduğu məsələlərdən biri də türk dünyasının birliyi ilə bağlı oldu. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Türkiyə arasındakı qardaşlıq münasibətinin güclənməsi bütün türk dünyasına böyük töhfədir. Reallıq da ondan ibarətdir ki, Azərbaycanla Türkiyəni birləşdirən bütün enerji və nəqliyyat layihələri həm də türk dövlətləri arasındakı iqtisadi əlaqələrə xidmət edir. Həm Bakı-Tbilisi-Qars dəmir yolu xətti, həm də neft və qaz kəmərləri dünya bazarlarına çıxış yolunda Orta Asiyanın türk dövlətləri üçün yeni imkanlar yaradır. Türkiyə isə həm də tranzit ölkə kimi neft-qaz boru kəmərlərinin bəhrəsini görür. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük töhfələridir.

Prezident İlham Əliyevin çıxışında toxunduğu məsələlərdən biri də Naxçıvanla bağlı oldu. 1920-ci ildə sovet hakimiyyətinin qədim Azərbaycan torpağı olan Zəngəzuru Ermənistana birləşdirməsindən sonra Naxçıvan respublikamızın əsas hissəsindən ayrı düşüb. Artıq 35 ilə yaxındır ki, Naxçıvan həm də blokada vəziyyətindədir. Ötən əsrin sonlarına yaxın Azərbaycan ərazilərinin işğal edilməsi planlarını işə salan Ermənistanın hədəflərindən biri də Naxçıvan idi. Lakin Ulu Öndər Heydər Əliyevin 1990-cı ildə Naxçıvana qayıdışı ermənilərin bu diyarla bağlı təcavüzkar planlarının qarşısını aldı. Naxçıvan sakinləri Ulu Öndərin rəhbərliyi ilə səfərbər olaraq doğma yurdlarını müdafiə etdilər. O zaman respublikamıza rəhbərlik edənlərin laqeyd münasibətlərinə, hərbi dəstəyin olmamasına baxmayaraq, Ulu Öndər Heydər Əliyev öz qətiyyəti ilə bu doğma yurdu qorudu, ermənilər tərəfindən işğal olunmasına imkan vermədi. "Onların planları Naxçıvanı da işğal etmək idi. Ancaq o zaman mənim atam Heydər Əliyev Naxçıvanın rəhbəri kimi buna imkan vermədi və Naxçıvanı qorumaq üçün bütün naxçıvanlılar səfərbər oldular, öz doğma torpaqlarını qorudular və işğalçını yerində oturtdular", - deyə Prezident İlham Əliyev bildirib.

Ümumiyyətlə, müstəqilliyimizin ilk illərində respublikamızda iqtidarda olanların heç biri blokada vəziyyətində olan Naxçıvanın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün hansısa bir addım atmamışdılar. Əksinə, onlar muxtar respublika üçün nəzərdə tutulan yardımların, göndərilən yanacağın həcminin azaldılmasına çalışmışdılar. Həmin ağır günlərdə məhz Heydər Əliyev özünün uzaqgörənliyi ilə muxtar respublika əhalisinin sosial-iqtisadi durumunu yaxşılaşdırmaq istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə nail olmuşdu. Bu sırada Ulu Öndərin muxtar respublikaya rəhbərlik etdiyi həmin dövrdə tikintisinə başlanılan və 1992-ci il mayın 28-də istifadəyə verilən "Ümid" körpüsü xüsusi qeyd edilməlidir. Azərbaycanla Türkiyə arasında salınan "Ümid" körpüsü həmin dövrdə Naxçıvanın nəqliyyat blokadasının qismən aradan qaldırılmasında böyük rol oynamışdı.

Prezident İlham Əliyev bu faktları diqqətə çatdırmaqla həm də Azərbaycanla Türkiyə arasında qardaşlıq bağlarının yaradılmasının tarixini xatırlatdı. Görünən odur ki, iki dövlətin həyata keçirdiyi bütün əzəmətli layihələr möhkəm və sarsılmaz təməllərə, qürurdoğuran tarixi reallıqlara söykənir. "Ümid" körpüsündən İğdır-Naxçıvan qaz kəmərinə qədər olan bu tarix Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, "Cənub qaz dəhlizi" kimi infrastrukturlarla daha da möhtəşəm məzmun alıb. Bu polad infrastrukturlar iki türk dövlətini bir-birinə qırılmaz bağlarla daha yaxın edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 8 mart (№52).- S.12.